*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 2* *ISSN 2663-4368*
*Səhifə: 6-11* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2023.2.6*

# HEYDƏR ƏLİYEV DÜHASININ İŞIQLARI

**İsa Həbibbəyli**
AMEA-nın prezidenti, akademik
E-mail: isa.habibbeyli@science.az

**Annotasiya.** Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev dünyanın tanınmış siyasətçiləri və görkəmli dövlət xadimləri tərəfindən böyük dövlətçilik məktəbi yaratmış dahi şəxsiyyət kimi qəbul olunur. Əhalisinin sayına və ərazisinin həcminə görə çox da böyük olmayan bir ölkəni təmsil edən Heydər Əliyevin adı dünyada ən tanınmış qüdrətli şəxsiyyətlərin adları ilə birlikdə çəkilir. Böyük siyasətin və dövlətçilik işinin dərinliklərinə daha çox bələd olan, dövlətçilik işinin məsuliyyətli vəzifələrini öz çiyinlərində real hiss edən dövlət xadimlərinin təqdimatlarında Heydər Əliyevin yüksək dövlətçilik və idarəetmə bacarıqları, qeyri-adi istedadı, möhkəm siyasi iradəsi, müdriklik və uzaqgörənliyi ilə həmişə diqqət mərkəzinə çəkilmiş, bir çox hallarda dünyaya nümunə kimi göstərilmişdir.
Görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi dühası və dövlətçilik məharəti haqqında dövrün ən böyük dövlət xadimləri ən müxtəlif səviyyədə yüksək fikirlər söyləmişlər. Birləşmiş Millətlər Təşkilatının Baş katibi Butros Qali, Rusiya Federasiyasının prezidenti Vladimir Putin, Fransanın prezidenti Jak Şirak, Qazaxıstanın prezidenti Nursultan Nazarbayev, Gürcüstan Respublikasının prezidenti Eduard Şevardnadze, Böyük Britaniyanın Baş naziri Toni Bleyr, Pakistanın Baş naziri Benəzir Bhutto, böyük qırğız yazıçısı Çingiz Aytmatov, dünya şöhrətli musiqiçi Mstislav Rostropoviç, dünyanın ilk qadın kosmonavtı Valentina Tereşkova və onlarla başqaları kimi beynəlxalq aləmdə qəbul edilmiş şəxsiyyətlərin Heydər Əliyev dühası haqqındakı fikirləri Azərbaycan xalqının Ümummilli liderinin xidmətlərinin ümumdünya miqyasında etiraf olunmasının ifadəsidir.
**Açar sözlər:** Heydər Əliyev, Ümummilli lider, dövlət xadimi, siyasət, siyasi iradə

**Məqalə tarixçəsi:** göndərilib – 15.12.2023; qəbul edilib – 29.12.2023

# THE LIGHT OF HEYDAR ALIYEV'S GENIUS

**Isa Habibbeyli**
President of ANAS, academician
E-mail: isa.habibbeyli@science.az

**Abstract.** Heydar Aliyev National Leader of Azerbaijani people is considered as a genius personality who created a grate school of statehood by great politicians and prominent statesmen of the world. The name of Heydar Aliyev who represented a country that is not very big in terms of its population and territory is mentioned along with the names of the world's most famous powerful personalities. In the presentations of statesmen who are more familiar with the depths of big politics and work of statehood and are aware of the responsible duties of state work Heydar Aliyev's high statehood and management skills, extraordinary talent, strong political will, wisdom and farsightedness has been always emphasized and shown as an example to the world in many cases.
Great statesmen of the period have expressed high opinions about prominent statesman Heydar Aliyev's political genius and statehood ability. The opinions of internationally renowned

personalities such as Boutros-Ghali, Secretary-General of the United Nations, Vladimir Putin, President of the Russian Federation, Jacques Chirac, the President of France, Nursultan Nazarbayev, the President of Kazakhstan, Eduard Shevarnadze, the President of Georgia, Tony Blair, Prime Minister of the United Kingdom, Benazir Bhutto, Prime Minister of Pakistan, Chingiz Aitmatov, the great Kyrgyz writer, Mstislav Rostropovich, world-famous musician, Valentina Tereshkova, the world's first woman cosmonaut and others about the genius of Heydar Aliyev are an expression of world recognition of the services of the national leader of the Azerbaijani people.
**Keywords:** Heydar Aliyev, National leader, statesman, politics, political will

**Article history:** received – 15.12.2023; accepted − 29.12.2023

## Giriş / *Introduction*

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev dünyanın tanınmış siyasətçiləri və görkəmli dövlət xadimləri tərəfindən böyük dövlətçilik məktəbi yaratmış dahi şəxsiyyət kimi qəbul olunur. Əhalisinin sayına və ərazisinin həcminə görə çox da böyük olmayan bir ölkəni təmsil edən Heydər Əliyevin adı dünyada ən tanınmış qüdrətli şəxsiyyətlərin adları ilə birlikdə çəkilir. Böyük siyasətin və dövlətçilik işinin dərinliklərinə daha çox bələd olan, dövlətçilik işinin məsuliyyətli vəzifələrini öz çiyinlərində real hiss edən dövlət xadimlərinin təqdimatlarında Heydər Əliyevin yüksək dövlətçilik və idarəetmə bacarıqları, qeyri-adi istedadı, möhkəm siyasi iradəsi, müdriklik və uzaqgörənliyi ilə həmişə diqqət mərkəzinə çəkilmiş, bir çox hallarda dünyaya nümunə kimi göstərilmişdir. Məsələn, Amerikanın keçmiş prezidenti Corc Buşun müstəqil Azərbaycan dövlətinin rəhbərini özünün şəxsi qayığında öz ailəsinə qonaq aparması digər dövlətlərin başçılarının tarixində təkrar edilməyən hadisədir. Bu, sadəcə, Amerikasayağı qonaqpərvərlik nümunəsi olmayıb, Heydər Əliyevin Amerika dövləti tərəfindən hansı səviyyədə qəbul edilməsindən başqa, həm də rəmzi mənada dünya sükanını idarə etdirməsinə nə qədər yaxın olduğunu diqqətə çatdırır. Təsadüfi deyildir ki, elə həmin vaxtlarda Amerikanın prezidenti kimi Corc Buş etiraf etməli olmuşdu ki, Azərbaycan Respublikasının Prezidenti “Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və natiqlik istedadına valehəm!” Amerika Birləşmiş Ştatlarının digər bir prezidenti Bill Klinton isə görkəmli dövlət xadimi Heydər Əliyevin nadir dövlətçilik istedadı qarşısında öz heyrətini gizlətməyərək bəyan etmişdi ki, “Heydər Əliyev təkcə Azərbaycanı, Amerikanı deyil, bütün dünyanı idarə etməyi bacaran bir siyasi xadimdir”. Fikrimcə, Amerikanın dövlət başçıları Heydər Əliyevdən başqa digər heç bir lider haqqında bu qədər açıq və yüksək münasibətlərini büruzə verməmişlər.

## Əsas hissə / *Main Part*

Dünya dövlət başçılarının həyatında nadir hallarda rast gəlinən belə tarixi məqamlar görkəmli dövlət xadimi Heydər Əliyevin tərcümeyi-halında bir neçə dəfə baş vermişdir. Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəlin öz təyyarəsi ilə qədim və etibarlı dostu, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin görüşünə gəlməsi də prezidentlərin həyatındakı nadir hadisələrdəndir. Məlum olduğu kimi, Türkiyə Cümhuriyyətinin siyasi həyatında uzun bir tarixi dövr ərzində xüsusi mövqe tutmuş Süleyman Dəmirəllə Azərbaycan xalqının lideri Heydər Əliyevin tanışlıq və dostluq əlaqələri hələ sovet hakimiyyəti illərindən etibarən başlamış və ən müxtəlif siyasi vəziyyətlərdə davam etdirilmişdir. Ona görə də Heydər Əliyevin SSRİ rəhbərliyi tərəfindən istefaya göndərilməsindən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyərkən, Avropanın ən güclü dövlətlərindən biri olan Türkiyə Cümhuriyyətinin Baş nazirinin Naxçıvana səfər etməsi ən çə-

tin şəraitdə qorunub saxlanan möhkəm və etibarlı dostluğun ibrətamiz nümunəsi idi. Lakin iki siyasət nəhənginin – Süleyman Dəmirəllə Heydər Əliyevin tarixi Naxçıvan görüşü sınaqlardan çıxmış əsl dostluğun ibrətamiz nümunəsi olmaqla bərabər, həm də Azərbaycan – Türkiyə münasibətlərinin yeni tarixi epoxadakı unudulmaz və əhəmiyyətli hadisələrindən biri idi. Türkiyə Cümhuriyyətinin rəhbər şəxsiyyətinin Naxçıvana səfəri bu ölkənin dünya miqyaslı siyasi xadim kimi məhz Heydər Əliyevin simasında Azərbaycana bəslədiyi xüsusi hörmət və ehtiramın əyani ifadəsi idi. Eyni zamanda Süleyman Dəmirəlin Naxçıvan Muxtar Respublikasına səfəri o zaman Ermənistan tərəfindən çətin blokada şəraitinə salınmış Naxçıvan diyarının Azərbaycanın tərkibində qorunub saxlanılmasına, erməni işğalından xilas edilməsinə Türkiyə Cümhuriyyətinin göstərdiyi siyasi-hərbi dəstəyin beynəlxalq aləmin diqqətinə çatdırılması mənasında da əhəmiyyətli hadisə olmuşdur. Beləliklə, Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işlədiyi qısa müddətdə Süleyman Dəmirəlin Azərbaycanın bu regionunun müdafiəsinə və inkişafına göstərdiyi xüsusi diqqət və qayğı yenicə müstəqillik qazanmış ölkəmizin Türkiyə Cümhuriyyəti ilə əlaqələrinin formalaşdırılmasında mühüm addımlara çevrilmişdir. Xüsusən 28 may 1992-ci il tarixdə Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin İqdır-Aralıq bölgəsi arasında Araz çayı üzərində salınmış Ümid körpüsünün açılışı mərasimində Süleyman Dəmirəlin iştirakı və çıxışı buradan cəmi bir neçə kilometr aralıda yerləşən Ermənistana və onun havadarlarına ünvanlanmış sərt bəyanat kimi xüsusi əhəmiyyətə malik tarixi hadisədir. Bundan əvvəl Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Süleyman Dəmirəlin dəvəti ilə Türkiyədə Özalla görüşünün təşkili, Naxçıvana iqtisadi yardım göstərilməsi haqqında qardaş ölkənin qərar qəbul etməsi və həyata keçirilməsi, Naxçıvandan yüz nəfər gəncin Türkiyəyə ali təhsil almağa göndərilməsi və sair kimi hadisələr Heydər Əliyev – Süleyman Dəmirəl münasibətlərinin Azərbaycan – Türkiyə əlaqələrinin inkişafında nə qədər mühüm töhfə verdiyini nümayiş etdirir. Bu əlaqələr görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyət göstərdiyi 1993-2003-cü illərdə daha da genişlənmiş, Türkiyə Cümhuriyyəti ilə strateji əhəmiyyətə malik olan çoxcəhətli münasibətlərin formalaşmasında və daha da möhkəmləndirilməsində xüsusi əhəmiyyət kəsb etmişdir.

Türkiyə Cümhuriyyətinin prezidenti vəzifəsində işlədiyi dövrdə Süleyman Dəmirəlin görkəmli dövlət xadimi Heydər Əliyevin haqqında söylədiyi aşağıdakı sözlər Azərbaycan xalqının Ümummilli liderinin dövlətçilik istedadına verilmiş yüksək qiymətin ifadəsidir: "Heydər Əliyev təkcə Azərbaycanın deyil, bütün türk dünyasının yetişdirmiş olduğu ən məşhur dövlət xadimlərindən biridir". Bütün bunlara görə, fikrimizcə, Heydər Əliyev – Süleyman Dəmirəl münasibətləri bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın siyasi iradələri ilə özünün ən yüksək inkişaf səviyyəsinə çatdırılmış Azərbaycan – Türkiyə əlaqələrinin etibarlı təməllərini təşkil edir. Vaxtilə görkəmli dövlət xadimi Heydər Əliyevin Türkiyə Böyük Millət Məclisində çıxışı zamanı bəyan etdiyi "Bir millət – İki dövlət" formulu hazırda Azərbaycan – Türkiyə əlaqələrinin strategiyasını müəyyən edən dövlətçilik təliminə çevrilmişdir. Qardaş ölkə ilə qurulmuş hərtərəfli əlaqələr və böyük siyasi etimad bütün cəbhələrdə həm ikitərəfli münasibətlərdə və həm də beynəlxalq miqyasda qarşılıqlı dəstəyin və həmrəyliyin inkişaf etdirilməsinə böyük töhfələr verməkdə davam edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Cümhuriyyəti ilə əlaqələri müasir dövrün çağırışlarına uyğun olaraq daha da inkişaf etdirərək ən yüksək səviyyəyə çatdırmışdır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi dühası və dövlətçilik məharəti haqqında dövrün ən böyük dövlət xadimləri ən müxtəlif səviyyədə yüksək fikirlər söyləmişlər. Birləşmiş Millətlər Təşkilatının Baş katibi Butros Qali, Rusiya Federasiyasının prezidenti Vladimir Putin, Fransanın prezidenti Jak Şirak, Qazaxıstanın prezidenti Nursultan Nazarbayev, Gürcüstan Respublikasının prezidenti Eduard Şevardnadze, Böyük Britaniyanın Baş naziri Toni Bleyr, Pakistanın Baş naziri Benəzir Bhutto, böyük qırğız yazıçısı Çingiz Aytmatov, dünya

şöhrətli musiqiçi Mstislav Rostropoviç, dünyanın ilk qadın kosmonavtı Valentina Tereşkova və onlarla başqaları kimi beynəlxalq aləmdə qəbul edilmiş şəxsiyyətlərin Heydər Əliyev dühası haqqındakı fikirləri Azərbaycan xalqının Ümummilli liderinin xidmətlərinin ümumdünya miqyasında etiraf olunmasının ifadəsidir. Ən başlıcası isə Heydər Əliyev doğma xalqı tərəfindən birmənalı şəkildə sözün böyük mənasında qüdrətli lider, əsl xilaskar, müstəqil dövlətimizin banisi və qurucusu kimi daim əziz tutulur, sevilir, sonsuz ehtiramla yad olunur. Heydər Əliyevin Ümummilli lider kimi şöhrət qazanması bu dahi şəxsiyyətin əbədiyyət zirvəsini fəth etməsinin real göstəricisidir.

Görkəmli dövlət xadim Heydər Əliyevin böyük siyasi dühasının əsasında onun Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətləri dayanır. Ulu öndər həm sovet hakimiyyəti illərində, həm də müstəqillik dövründə Azərbaycan xalqının tarixi taleyində və milli-mənəvi təkamülündə mühüm rol oynamışdır. Heç şübhəsiz, Azərbaycana rəhbərliyinin birinci mərhələsində ölkəmizi Sovetlər İttifaqının geridə qalmış regionundan ən inkişaf etmiş respublikalarından birinə çevirməsi Heydər Əliyevin tarixi xidmətidir. Sovet dövrünün yaratdığı bütün məhdudiyyətlərə baxmayaraq, 1978-ci ildə Azərbaycan dilinin respublikamızın Konstitusiyasında dövlət dili kimi təsbit edilməsi Heydər Əliyevin adı ilə bağlı olan nadir siyasi hadisədir. Özünü dünyanın ən inkişaf etmiş "derjava"sı elan etmiş SSRİ-nin siyasi-ideoloji doktrinalarının hakim olduğu dövrdə keçmiş ittifaq miqyasında ən nüfuzlu mətbuat orqanlarından biri kimi tanınan "Literaturnaya qazeta"ya verdiyi müsahibəsində Sovetlər İttifaqında neqativ halların mövcud olduğunu nəzərə çatdırması və tənqid etməsi, barışmazlıq nümunəsi göstərməsi Heydər Əliyev cəsarətinin təkrarsız nümunəsidir. Sovetlər İttifaqında sovet rəhbərlərindən heç biri SSRİ dövlətini hər hansı bir şəkildə tənqid etməyə cəsarət edə bilməmişdir. Bundan başqa, görkəmli dövlət xadimi Heydər Əliyevin Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilməsi və SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini vəzifəsinə təyinat alması da bu dahi şəxsiyyətin siyasi dühasının qeyri-adi böyüklüyünün mühüm göstəricilərindən biridir. Nəhayət, mənsub olduğu xalqı hələ sovet hakimiyyəti dövründə dövlət müstəqilliyinə hazırlaması Heydər Əliyev uzaqgörənliyinin əməli ifadəsidir.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi dövrünün taleyüklü ən böyük hadisələri də dünya miqyaslı qüdrətli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev müstəqilliyin başlanğıc illərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışarkən, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bu diyarı erməni işğalından xilas etmiş, bu regionda ölkəmizin ərazi bütövlüyünü qorumuşdur. Siyasi-hərbi şəraitin ən çətin dövründə, 3 oktyabr 1993-cü ildə Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə ölkəmizin tarixində tam yeni era başlanmışdır. Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, möhkəm siyasi iradəsi, beynəlxalq aləmdəki böyük nüfuzu, mahir idarəçilik bacarığı Azərbaycanın dövlət müstəqilliyinin itirilmək təhlükəsinin aradan qaldırılmasında həlledici rol oynamışdır. Real vətəndaş müharibəsi təhlükəsindən xilas edilmiş gənc Azərbaycan Respublikasında dərin siyasi-iqtisadi və hərbi böhranın aradan qaldırılması məhz Heydər Əliyev dühasının əsasında mümkün ola bilmişdir. O, sözün əsl mənasında Azərbaycanın dövlət müstəqilliyinin qüdrətli xilaskarı və böyük qurucusudur.

Dövlət müstəqilliyimizin ən böyük hadisələrindən biri olan milli ordu quruculuğunun əsası Heydər Əliyev tərəfindən qoyulmuşdur. Qarabağ savaşında ilk dönüş də Heydər Əliyevin Ali Baş Komandanlığı ilə Horadiz əməliyyatları zamanı tarixi ərazilərimizin düşməndən geri qaytarılmasının mümkünlüyünün nümayiş etdirilməsi ilə baş tutmuşdur. Lissabon Sammitində əldə edilmiş siyasi üstünlük beynəlxalq miqyasda Qarabağ istiqamətində qazanılmış mühüm uğurlardan biri olmuş, dünya ictimaiyyətində Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınmasında və ədalətli mübarizə aparmasının qəbul edilməsində əhəmiyyətli rol oynamışdır. Beynəlxalq aləmdəki çətin ictimai-siyasi şəraitdə Azərbaycan Respublikasının Avropa Şurasının üzvlüyünə qəbul edilməsi də Heydər Əliyevin dövlət rəhbəri kimi tarixi xidmətidir.

Müstəqilliyin başlanğıc illərində dərin iqtisadi böhran vəziyyətinə düşmüş Azərbaycan Respublikasında iqtisadiyyatın tam yenidən qurulması Heydər Əliyev dövrünün böyük reallıqlarıdır. Mürəkkəb geosiyasi şəraitdə Heydər Əliyevin siyasi iradəsi və beynəlxalq aləmdəki nüfuzu hesabına 20 sentyabr 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" müstəqilliyimizin gələcək taleyinin həll edilməsinin qarantı olmuşdur. Sözün əsl mənasında "Əsrin müqaviləsi" Heydər Əliyev epoxasının əfsanəsidir. Haqlı olaraq "Əsrin müqaviləsi" Azərbaycan tarixinə Heydər Əliyev müqaviləsi kimi daxil olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Əsrin müqaviləsi"nin həyata keçirilməsini təmin etməklə Azərbaycan tarixində yeni bir era açmışdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə istismara verilmiş Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars, TANAP, TAP neft-qaz kəmərləri Azərbaycan Respublikasının iqtisadi inkişafında müstəsna rol oynamaqla bərabər, həm də ölkəmizə etibarlı tərəfdaşlar və müttəfiqlər qazandırmışdır. Digər tərəfdən, Azərbaycan Respublikasında bazar iqtisadiyyatına keçid istiqamətində atılmış addımlar, torpaq islahatlarının uğurla başa çatdırılması, özəl sektorun inkişaf etdirilməsinə dair qərarların qəbul edilməsi müstəqil dövlətimizin iqtisadi əsaslarının təmin edilməsi ilə nəticələnmişdir.

Azərbaycanda elm, təhsil və mədəniyyət siyasəti də müstəqillik dövründə Heydər Əliyevin rəhbərliyi ilə yenidən qurulmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi Heydər Əliyevin 16 dekabr 1991-ci ildə "Dünya Azərbaycanlılarının Həmrəylik Günü"nün təsis edilməsi haqqında qəbul etdiyi tarixi qərar sonrakı illərdə Azərbaycan Respublikası Prezidentinin həmin istiqamətdə atdığı yeni addımları daha da genişləndirərək, Azərbaycançılıq hərəkatı səviyyəsinə qaldırmışdır. Heydər Əliyevin rəhbərliyi ilə Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi müstəqil dövlətimizin ictimai-siyasi həyatında böyük hadiyyə olmaqla bərabər, dünya azərbaycanlıları anlayışının daha da möhkəmləndirilməsinə xidmət etmişdir. Dövlət Diaspora Komitəsinin yaradılması da Azərbaycançılıq hərəkatının genişləndirilməsində əhəmiyyətli addım olmuşdur. Bütün bunlar son nəticədə Azərbaycançılığın dövlət ideologiyası kimi qəbul edilməsinə gətirib çıxarmışdır. Bu mənada görkəmli dövlət xadimi Heydər Əliyev müstəqil Azərbaycançılığın dövlət ideologiyasının – Azərbaycançılıq ideologiyasının banisidir.

Azərbaycanda elm siyasətinin həyata keçirilməsində də Heydər Əliyevin xüsusi xidmətləri olmuşdur. Hələ sovet hakimiyyəti illərində Heydər Əliyev Azərbaycan elminin xalqımızın milli maraqlarına, ölkəmizin dövlətçilik mənafelərinə xidmət etməsinin təmin edilməsi istiqamətində tarixi qərarlar qəbul etmişdir. Müstəqillik epoxasında da Heydər Əliyev dühası Azərbaycan elminin inkişafı yollarına işıq saçmışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 4 yanvar 2003-cü il tarixli Fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına Milli Elmlər Akademiyası statusu verilməsi dövlətimizin elm siyasətinin milli maraqlara və bəşəri dəyərlərə doğru istiqamətləndirilməsini müəyyən etmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Milli Elmlər Akademiyasının yeni tarixi epoxadakı inkişafını tənzimləyən və istiqamətləndirən Nizamnaməsini təsdiq etməsi, Akademiyanın yubileylərində iştirak etməsi və nitq söyləməsi, müasir dövrün çağırışlarını diqqət mərkəzinə çatdırması elm sahəsində yeni islahatların həyata keçirilməsinə meydan açmışdır.

## Nəticə / *Conclusion*

Bir sözlə, Heydər Əliyev dühasının işığı Azərbaycan xalqının və dövlətimizin inkişafının bütün sahələrini əhatə etmiş, hər bir istiqamətdə köklü, əsaslı dəyişikliklərin, böyük uğurların, mühüm nailiyyətlərin qazanılması ilə nəticələnmişdir. Bu mənada görkəmli dövlət xadimi Azərbaycan xalqının taleyini dəyişdirmiş, dövlətimizin inkişafında yeni epoxa yaratmış tarixi şəxsiyyətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizə rəhbərlik etdiyi 20 il ərzində müstəqil dövlətimizi yeni inkişaf və böyük intibah mərhələsinə çatdırmışdır. Azərbaycan tarixinə 44 günlük ədalətli müharibə kimi daxil olmuş Vətən müharibəsində

qazanılmış tarixi Zəfər və 20 sentyabr 2023-cü ildə uğurla keçirilmiş hərbi əməliyyat nəticəsində ölkəmizin ərazi bütövlüyünün və suverenliyimizin tam təmin edilməsi Heydər Əliyev ideallarının böyük təntənəsidir. Azərbaycan Respublikası xalqımızın çoxəsrlik tarixində ilk dəfə olaraq ölkəmizin ərazi bütövlüyü şəraitində Prezident seçkilərinə getməklə inkişafımızın yeni tarixi mərhələsinə qədəm qoyur. Heydər Əliyev dühasının işıqları və İlham Əliyev epoxasının geniş üfüqləri Azərbaycan xalqının daha parlaq sabahlara və böyük inamlı magistrallara doğru inkişafına gur işıq salır.

## СВЕТОЧ ОДАРЁННОСТИ ГЕЙДАРА АЛИЕВА

**Иса Габиббейли**
Президент НАНА, академик
E-mail: isa.habibbeyli@science.az

**Резюме.** Общенациональный лидер азербайджанского народа Гейдар Алиев признан известными мировыми политиками и государственными деятелями гениальной личностью, создателем значимой политической школы. Несмотря на то, что Гейдар Алиев является представителем страны с относительно небольшой территорией и численностью населения, его имя значится среди самых выдающихся личностей мира. Благодаря умелому владению ведением руководства государственными делами, необыкновенному таланту, твёрдой политической воле, мудрости и дальновидности Гейдар Алиев всегда был в центре внимания самых известных государственных деятелей, владеющих глубокими политическими познаниями в вопросах государственного устройства, реально понимающих возложенный на их плечи груз ответственности своей задачи, и во многих вопросах даже являлся образцом.
Самые известные государственные деятели мира высказывали одобрительные мнения различного рода о высокой политической одарённости Гейдара Алиева и его умелом руководстве государством. Высказывания о талантах Гейдара Алиева таких выдающихся личностей мирового сообщества, как Генеральный секретарь Организации Объединённых Наций Бутрос Гали, президент Российской Федерации Владимир Путин, президент Франции Жак Ширак, президент Казахстана Нурсултан Назарбаев, президент Грузинской Республики Эдуард Шеварднадзе, премьер-министр Великобритании Томас Блейер, премьер-министр Пакистана Беназир Бхутто, выдающийся киргизский писатель Чингиз Айтматов, всемирно известный музыкант Мстислав Ростропович, первая в мире женщина-космонавт Валентина Терешкова и десятки других, явились выражением признания в мировом масштабе заслуг Общенационального лидера нашего народа.
**Ключевые слова:** Гейдар Алиев, Общенациональнй лидер, государственный деятель, политика, политическая воля